# "Yaşıl dünya naminə həmrəylik ili"nə aid sərgi

**"Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar Şəmkir Rayon İcra Hakimiyyəti və rayon təhsil sektorunun birgə təşkilatçılığı ilə körpələr evi-uşaq bağçalarının balaca fidanlarının hazırladığı əl işlərindən və rəsmlərdən ibarət sərgi təşkil olunub.**

Şəmkir Şəhər İstiqlal Parkında keçirilən sərgidə RİH-in və təhsil sektorunun nümayəndələri iştirak etdilər.

Tədbirdə dünyanı narahat edən ekoloji problemlər, iqlim dəyişiklikləri və onların canlı aləmə mənfi təsirlərindən, ekoloji mədəniyyətdən danışaraq bu sahəyə diqqətin artırılması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin əhəmiyyətini iştirakçıların diqqətinə çatdırdılar.

Bildirildi ki, sərginin keçirilməsində məqsəd ətraf mühitin çirkləndirilməsinin qarşısını almaq, azyaşlıların asudə vaxtlarının səmərəli istifadəsini təşkil etmək, uşaqların bacarıq və qabiliyyətlərini üzə çıxarmaq, onlarda sağlam ətraf mühit hissi formalaşdırmaqdır.



Həmçinin sərgi çərçivəsində balacalar parkda çiçək əkiblər.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika .- 2024.- 8 avqust, (№ 167).- S.4.